## COĞRAFİ TƏHSİL

© O.K.Alxasov, N.S.Seyfullayeva

# AZƏRBAYCAN RESPUBLİKASINDA MƏKTƏB COĞRAFİYASININ İNKİŞAFI

**O.K.Alxasov[1], N.S.Seyfullayeva[2]**

*1.Azərbaycan Dövlət Pedaqoji Universiteti, 2.Bakı Dövlət Universiteti*

Məqalədə müstəqillik illərində Azərbaycan Respublikasında coğrafiya fənninin tədrisi sahəsində baş verən dəyişikliklər öz əksini tapmışdır. Coğrafiyadan yeni proqramların və dərsliklərin hazırlanması mərhələləri təhlil olunmuş və qarşıda duran vəzifələr müəyyən edilmişdir.

Azərbaycan Respublikasının demokratik dövlət quruculuğu yolunda inkişafının ən vacib istiqamətlərindən biri təhsil islahatıdır. Həyata keçirilməli olan daha möhtəşəm məsələlərin həllinin yüksək səviyyəli mütəxəssislər və ixtisaslı işçi qüvvəsi olmadan yerinə yetirilməsini təsəvvür etmək mümkün deyildir. Müasir təhsil sistemi dövləti çevik düşünmə qabiliyyətinə malik olan, beynəlxalq tələblərə cavab verən kadrlarla təmin etməlidir.

Respublikamızda təhsil islahatının əsas istiqamətlərindən biri tədris proqramlarının, təlimin məzmununun və tədrisi metodikasının müasir tələblər səviyyəsində yeniləşdirilməsidir. Onlar zamanın tələblərinə uyğun gəlməli, Azərbaycan iqtisadiyyatının inkişaf meyillərini nəzərə almalı və beynəlxalq təcrübəyə əsaslanmalıdır.

Bu mənada coğrafiya fənninin də üzərinə müəyyən vəzifələr düşür. Coğrafiyanın təlimi şagirdləri təbiət və cəmiyyətin qarşılıqlı əlaqəsi haqqında biliklərlə silahlandırır, onlarda bir sıra həyati əhəmiyyətli bilik və bacarıqların formalaşdırılmasına şərait yaradır.

Müasir dövrdə informasiya bolluğundan baş açmağı bacaran, informasiyanı təhlil edib ümumiləşdirmək qabiliyyətinə malik, müstəqil bilik mənbələri ilə sərbəst işləyən gənclər hazırlamaq məktəbin qarşısında duran ən mühüm vəzifələrdən biridir.

Müstəqillik illərində məktəb coğrafiyasının məzmununda və quruluşunda (strukturunda) əsaslı dəyişikliklər aparılmışdır. Keçmiş imperiya ideologiyasından azad, müstəqil dövlətimizin ərazi bütövlüyünü, iqtisadiyyatın inkişaf meyillərini, xalqımızın mənəvi dəyərlərini əksetdirən yeni dərsliklərin hazırlanması vacib bir məsələ kimi qarşıda dururdu. Bu məqsədlə də ilk növbədə coğrafiyadan tədris proqramlarının təkmilləşdirilərək yenidən tərtib olunması həyata keçirilmişdir.

Coğrafiya fənn proqramının təkmilləşdirilməsi ilə bağlı aparılan dəyişiklikləri və mərhələləri nəzərdən keçirək.

Müstəqilliyimizin ilk günündən orta ümumtəhsil məktəbləri üçün yeni proqram hazırlanması qarşıya qoyulmuşdur. 1992/1993-cü dərs ili üçün ilk proqram hazırlandı. Proqram daha çox keçmiş sovet dövründə verilən tələblər əsasında tərtib olunsa da, burada əsaslı dəyişikliklər də aparılmışdır. XI sinifdə "Türk dünyasının coğrafiyası"nın tədrisinin həyata keçirilməsi coğrafiyanın tədrisi ilə bağlı çox böyük irəliləyiş hesab oluna bilər. SSRİ coğrafiyasının əvəzinə Azərbaycan Respublikasının coğrafiyası daha çox saat ayrılmaqla tədris olunmalı idi.

Proqramın tələsik və kosmetik dəyişikliklərlə tərtib olunduğunu nəzərə alsaq, 1993/1994-cü dərs ilində daha yeni və təkmilləşdirilmiş proqramın hazırlanmasını qənaətbəxş hesab etmək olar. Bu proqramda aparılan əsaslı dəyişikliklər aşağıdakılardan ibarət olmuşdur: 1) VII sinifdə "Materiklər və ölkələr coğrafiyası"nın tədrisi icbari təhsilin VIII sinifdə bitməsi ilə əlaqədar bəzi mühüm dövlətlər haqqında qısa məlumat verilməsinin vacibliyi ilə izah olunurdu. 2) İlk dəfə olaraq IX sinifdə "Yerşünaslıq" kursunun tədris olunması; 3) "Dünyanın iqtisadi və sosial coğrafiyası" kursunun IX sinifdə III və IV rübdə, X sinifdə il boyu tədris olunması; 4) VI, IX siniflərdə "Atmosfer" bölməsinin "Hidrosfer" bölməsindən əvvəl tədris edilməsi; 5) Materiklərin öyrənilməsi ardıcıllığının dəyişdirilərək Avrasiyadan başlanması. Beləliklə, coğrafiya proqramının bu variantındakı yenilik əvvəlkindən əsaslı sürətdə həm struktur, həm də məzmun cəhətdən fərqlənməsidir (Alxasov, 2013).

1999-cu ildə yeniləşdirilmiş coğrafiyanın tədris proqramı keçən dövr ərzində təhsildə baş verən dəyişiklikləri nəzərə almaqla tərtib olunmuşdur. Bu proqram da məktəb coğrafiyasının tədrisində bir sıra struktur və məzmun dəyişikliklərini özündə əks etdirirdi. 1) İlk növbədə ümumi icbari təhsilin məktəbin son sinfinə - XI sinifə keçirilməsi ilə əlaqədar VII sinifdə "Materiklər və okeanlar coğrafiyası" kursunun bərpa edilməsi qeyd olunmalıdır; 2) "Azərbaycan Respublikası-

nın fiziki və iqtisadi-sosial coğrafiyası" müvafiq olaraq VIII sinifdə I-II və III-IV rüblərdə tədris olunur; 3) "Dünyanın iqtisadi və sosial coğrafiyası"nın iki tədris ilində (IX və X siniflərdə) deyil, yalnız IX sinifdə il boyu tədris olunması; 4) "Yerşünaslıq" kursunun tədrisinin IX sinfindən X sinifə keçirilməsi (Seyfullayeva, 2011).

2002-2003-cü dərs ilindən ayrı-ayrı fənlərin icbari tədris və seçmə proqramlarla tədrisi nəzərdə tutulduğundan coğrafiya fənni üzrə proqramın da minimum və maksimum variantları hazırlanaraq nəşr olundu. Onu da qeyd edək ki, fənnin ayrı-ayrı kurslarının siniflər üzrə tədris ardıcıllığı və hər bir kursun əvvəlki illərdə yaranmış və təkmilləşdirilmiş məzmunu, strukturu, ardıcıllığı pozulmamışdır.

Lakin maksimum proqram əsasında tədris uzun müddət çəkmədi və nəticədə minimum proqram üzrə coğrafiyanın tədrisi üçün ayrılmış həftəlik tədris saatlarının miqdarı azaldılmış oldu. VII sinifdə həftəlik tədris 3 saatdan 2 saata, "Azərbaycan coğrafiyası"nın tədrisinə ayrılmış il boyu həftəlik 3 saat 2 saata endirilmişdir. Eyni zamanda, "Dünyanın iqtisadi və sosial coğrafiyası" kursunun tədrisi də həftədə 3 saatdan 2 saata endirilmiş oldu. Bir müddət sonra "Azərbaycan Respublikasının iqtisadi və sosial coğrafiyası"nın tədrisi üçün həftəlik 2 saat vaxt da azaldılaraq 1 saata düşmüşdür.

Nəhayət, 2011-ci ildə təsdiq olunmuş fənn proqramlarına (kurikuluma) əsasən, bir sıra fənlərdə olduğu kimi, coğrafiyanın tədrisində də əsaslı dəyişikliklərə start verilmiş oldu. Coğrafiyanın uzuin illər tətbiq olunan strukturu tamamilə yeni mahiyyət daşımağa başladı. Məlum olduğu kimi, məktəb coğrafiya kursları ali məktəb kurslarının bir növ kiçik modelini təşkil edirdi. Nəzəri coğrafiya kursları ("Ümumi fiziki coğrafiya", "Yerşünaslıq", "Dünyanın iqtisadi və sosial coğrafiyası") və ölkəşünaslıq kursları ("Materiklər və okeanların fiziki coğrafiyası", "Türk dünyasının coğrafiyası", "Azərbaycan coğrafiyası") bir-biri ilə növbələşərək tədris edilir, coğrafiyanın hər iki qolu (fiziki və iqtisadi coğrafiya) təmsil olunurdu. Yeni proqramda (kurikulumda) bütün bunlar ləğv olunur, coğrafiyanın 3 əsas məzmun xətti üzrə - "Coğrafi mövqe", "Təbiət" və "Cəmiyyət" məzmun xətləri üzrə VI sinifdən XI sinfə qədər yüksələn xətt üzrə inkişaf etdirilməsi nəzərdə tutulur. Hər bir məzmun xətti, müvafiq olaraq, üst və alt standartlara, açar sözlərə, məzmuna malik olmaqla tərtib olunmuşdur (edu.gov.az).

Məktəb coğrafiyası proqramının strukturunun köklü surətdə dəyişdirilməsinin nə dərəcədə uğurlu və ya uğursuz olacağını indidən demək çətindir. Bu sahədə yeni dərsliklərin hazırlanması, məktəbdə qazanılacaq təcrübə və gələcəkdə aparılacaq metodik tədqiqatlar bu suala bir müddət sonra cavab verə biləcək. Buna həm də dövlətimizin təhsil sahəsində apardığı siyasətin və islahatın nəticəsi kimi də baxmaq lazımdır.

Hazırda məktəb coğrafiyası sahəsində çalışan bütün mütəxəssislərin diqqəti məhz bu sahəyə yönəldilməlidir.

Lakin indidən bəzi mülahizələrimizi bölüşmək istəyərdik. Yeni dərsliklərin hazırlanması ilə bağlı proqram üzərində gələcəkdə yenidən işlənilməsinə, təkmilləşdirmə aparılmasına ehtiyac duyulur. Standartların, açar sözlərin sisteminə, ardıcıllığına daha ciddi yanaşılmalıdır. Bu çatışmazlıq özünü dərsliklərin hazırlanmasına da öz təsirini göstərir. Ümumiyyətlə, coğrafiya fənn proqramı (kurikulum) şagirdlərin biliklərinin həcminin artırılmasına deyil, onların fəaliyyətinə, müstəqil düşünmələrinə, müxtəlif bilik mənbələri ilə işləmək bacarığı qazanmağa, bilikləri sərbəst əldə etmələrinə yönəldildiyi üçün proqramın yeni strukturu daha əlverişli metodik imkanlar yaratmalıdır.

Respublikada orta ümumtəhsil məktəbləri üçün yeni coğrafiya dərsliklərinin hazırlanması və nəşrini üç mərhələyə ayırmaq olar.

Birinci mərhələ 1993-2000-ci dərs ilinə qədər olan dövrü əhatə edir. Bu dövrdə yeni milli dərsliklərin nəşr edilməsi yaxşı hal hesab olunsa da, çatışmazlıqlar və nöqsanlar da mövcud idi. Onlardan aşağıdakıları göstərmək olar:

- dərsliklərin texniki keyfiyyəti yüksək deyildi, ağ-qara formada verilmişdir;
- qısa vaxt ərzində hazırlandığı üçün metodik aparatı üzərində ciddi işlənilməsi lazım gəlirdi;
- əyanilik, illüstrativ materiallar az və keyfiyyətsiz idi;
- rəqəm materialları və nomenklatura ilə həddindən artıq yüklənmişdi və s.

İkinci mərhələ təxminən 2000-ci ildən başlayaraq 2012-ci ilə qədər olan dövrü əhatə edir. Əvvəlki dərsliklər təkmilləşdirilərək yenidən nəşr olundu. Bu nəşr dərsliklər keyfiyyətcə yeni mərhələ hesab oluna bilər (Alxasov, 2013a).

Nəhayət, yeni fənn kurikulumunun hazırlanması və təsdiq edilməsindən sonra coğrafiya dərsliklərinin hazırlanmasında üçüncü mərhələ başlandı. 2013/2014-cü dərs ilindən VI siniflər üçün ilk kurikulum dərsliyi nəşr olunaraq tədris edilir. 2014-cü ildən VII sinif üçün də yeni kurikullum əsasında hazırlanmış dərslik və müəllimlər üçün vəsait müəllim və şagirdlərin istifadəsinə

verildi. Hazırda isə VIII sinif dərslikləri üzərində ciddi iş gedir. Kurikulum əsasında hazırlanan dərsliklər ənənəvi dərsliklərdən köklü surətdə fərqlənir. Yeni dərsliklərdə məzmun, dil və yazı üslubu, dizayn və illüstrasiyaların tərtibatına olan tələblər şəxsiyyətyönümlü və nəticəyönümlü xarakteri ilə fərqlənir. Müasir dərsliklərdə gender, irq, etnik və din məsələlərinə həssas yanaşma diqqət mərkəzindədir. Məktəb coğrafiyasında ən mühüm yeniliklərdən biri isə siniflər üzrə dərsliklər kompleksində müəllimlər üçün metodiki vəsaitin tərtib edilməsidir.

Qeyd etmək lazımdır ki, kurikulum əsasında hazırlanmış ilk dərsliklər də müəllim və mütəxəssislər arasında birmənalı qarşılanmamışdır. Onun mahiyyətini, metodikasını qəbul edənlər çox olsa da, konservativ düşünmələr də var. Fikrimizcə, bu sahədə hələ ciddi işlər davam edəcək və təkmilləşdirmələrə, axtarışlara ehtiyac olacaq.

Ümumiyyətlə, coğrafiya üzrə fənn proqramlarının və dərsliklərin işlənib hazırlnamsında coğrafiya üzrə görkəmli alim və mütəxəssislərimizin, qabaqcıl coğrafiya müəllimlərinin gərgin əməyini, zəhmətini qeyd etmək lazımdır.

M.Müseybov, B.Budaqov, N.Allahverdiyev, B.Paşayev, T.Qərayzadə və başqa mərhum alimlərimizin adlarını qeyd etməyə bilmərik. Bu sahədə E.Əlizadə, V.Əfəndiyev, T.Həsənov, N.Əyyubov, Y.Qəribov, F.İmanov, D.Ələsgərov və s. alimlərimizin, Ş.Hümbətova, E.Əliyeva, R.Məmmədov və s. kimi orta məktəb müəllimlərinin əməyini qiymətləndirməliyik.

Məktəb coğrafiyasının inkişafında ən mühüm sahələrdən biri də müəllim kadrlarının hazırlığıdır. Təməli 1935-ci ildə Azərbaycan Dövlət Pedoqoji İnstitutunda qoyulmuş coğrafiya ixtisası üzrə mütəxəssis hazırlığı mühüm tarixi yol keçmişdir. Hazırda respublikanın 7 ali məktəbində, o cümlədən BDU, ADPU, LDU, SDU, GDU, NDU, Xəzər Universiteti və Bakı Qızlar Universitetində coğrafiya müəllimliyi, ADPU, AMİ və Qazax, Sumqayıt, Şamaxı, Şəki, Zaqatala, Ağ-cabədi, Salyan, Cəlilabad, Quba, Gəncə, Lənkəran filiallarında tarix-coğrafiya müəllimliyi üzrə bakalavr pilləsi, ADPU və SDU-da coğrafiya müəllimliyi üzrə magistr pilləsi üzrə mütəxəssis hazırlanır (Seyfullayeva, 2011a).

Məktəb coğrafiyasının müasir inkişafı ali məktəbdə coğrafiya tədrisi metodikası kursunun məzmunu və təşkili ilə bilavasitə bağlıdır. Hazırda orta məktəb coğrafiya kurslarının məzmununun fərqli olması ali məktəbdə tədris proqramlarının məzmunu ilə əlaqələndirilməlidir. Çünki kurikulum üzrə tərtib edilən orta məktəb coğrafiya kursu fiziki, iqtisadi coğrafiya və kartoqrafik biliklərin sintezindən yaranan konstruktiv coğrafiyanı əks etdirir. Əvvəldə olduğu kimi, ayrı-ayrı siniflərdə "Ümumi fiziki coğrafiya", "Materik və okeanlar coğrafiyası", "Azərbaycanın fiziki coğrafiyası", “Azərbaycan Respublikasının iqtisadi və sosial coğrafiyası", "Dünyanın iqtisadi və sosial coğrafiyası", "Yerşunaslıq", "Türk dünyasının coğrafiyası" kursları tədris edilmir. Məktəb coğrafiyasında yaranan dəyişikliklərdən biri də orta məktəbdə “Həyat bilgisi" fənninin tədrisinin rəsmi olaraq coğrafiya və biologiya müəllimlərinə həvalə edilməsidir. Coğrafiya müəllimliyi ixtisası üzrə bakalavr pilləsində "Həyat bilgisi" və onun tədrisi ilə əlaqədar fənnin daxil edilməsi məqsədəuyğundur. Digər yeniliklərdən biri də əvvəllər orta məktəbdə 9-11 siniflərdə tədris edilən "İqtisadiyyatın əsasları" fənninin tədris planından çıxarılması və fənnin məzmununun məktəb coğrafiyası kursunun tərkibinə verilməsidir. Coğrafiya müəllimi hazırlığında bu məsələnin də həll edilməsinə ehtiyac vardır.

Orta məktəblərdə coğrafiyanın tədrisi üçün ayrılan saatların miqdarı da köklü surətdə dəyişilmişdir. Belə ki, ənənəvi təlimdə fənnin tədrisinə VI-IX siniflər üzrə cəmi 307 saat vaxt ayrılırdısa, kurikulum layihəsinin tətbiq edilməsi şəraitində məktəb coğrafiyasına ayrılan saatların miqdarı 420 saata çatdırılması nəzərdə tutulmuşdur. Məktəb coğrafiyasının inkişafının bilavasitə ali məktəblərdə coğrafiya tədrisi metodikası ilə əlaqəli olması "Coğrafiya tədrisi metodikası" fənninin tədrisində köklü dəyişikliklərin edilməsinə tələbat yaradır.

Orta məktəblərdə coğrafiyanın tədrisi məsələlərindən danışırıqsa, ali məktəblərə qəbul imtahanlarının test üsulu ilə aparılması və onunla bağlı görülən işləri də qeyd etməmək olmaz. Bu sahədə TQDK-nın, onun coğrafiya üzrə ekspert şurasının üzvlərinin, coğrafiya üzrə fəaliyyət göstərən metodik seminarın işinin uğurlu və qənaətbəxş olmasını da vurğulamaq lazımdır. Bu dövr ərzində TQDK-da coğrafiya üzrə metodik vəsait ayrı-ayrı siniflər üçün və hazırda isə kurikulum üzrə hazırlanmış dərsliklərə əsasən test tapşırıqları toplusu hazırlanaraq nəşr olunmuşdur.

Coğrafiyadan yeni fənn proqramının (kurikulumun) tətbiqinin ilk mərhələsində görülən işlərin təhlili gələcəkdə hansı istiqamətlərə daha ciddi diqqət yetirilməsini ehtiva edən qənaətlərimizi söyləməyə imkan verir.

1. Yeni proqramın üzərində mütəxəssislərin bir neçə il işləməsinə baxmayaraq, yeni dərsliklərin hazırlanması və onların tədrisi prosesində alt və üst standartların tam təkmil olmasına nail

olunmamış və onların yenidən nəzərdən keçirilməsinə və təkmilləşdirilməsinə ehtiyac vardır.

2. Həmçinin dərsliklər və müəllim üçün vəsaitlər də ideal hesab oluna bilməz və bu sahədə də ciddi axtarışlar aparılmalı, onların məzmunu və metodik aparatı yeni tələblərə uyğun olaraq yeniləşdirilməlidir.

3. Yeni proqramın tələblərinə müvafiq şəkildə işlərini qurmağa müvəffəq olan müəllimlərin qabaqcıl təcrübəsinin öyrənilməsi və təbliğ edilməsi də fənnin tədrisinin yaxşılaşdırılması üçün vacib hesab olunur. Fəal (interaktiv) təlim metodlarının tətbiqi və kütləviləşdirilməsi olmadan qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsinə nail oluna bilməz.

4. Məktəblərdə fənnin tədrisi sahəsində ciddi çatışmazlıqlardan biri də coğrafiyadan tədris vəsaitlərinə çox böyük ehtiyacın omasıdır. Spesifik fənn kimi coğrafiya bir sıra atlaslar, divar xəritələri, tədris avadanlıqları olmadan keçinə bilməz. Coğrafiya fənni üçün bir sıra tədris vəsaitlərinin hazırlanması və kütləvi halda məktəblərin istifadəsinə verilməsi heç də az əhəmiyyət daşımır.

5. Tədris prosesi ilə yanaşı, coğrafiyanın bir elm kimi geniş təbliğinə, onun cəmiyyətdəki vacib missiyasının geniş kütləyə çatdırılmasına nail olmaq və bu sahədə Azərbaycan Coğrafiya Cəmiyyətinin imkanlarından geniş istifadə etmək lazımdır.

### ƏDƏBİYYAT

1. Alxasov O.K. Coğrafiyanın tədrisi metodikası. Bakı, 2013

2. Seyfullayeva N.S. Coğrafiyanın tədrisi metodikası. Bakı, 2011

3. edu.gov.az

### РАЗВИТИЕ ШКОЛЬНОЙ ГЕОГРАФИИ В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ

**О.К.Алхасов, Н.С.Сейфуллаева**

В данной статье отражены изменения в методике преподавания географии за период независимости Азерб. Республики. Были рассмотрены особенности содержания новых учебных программ и учебники средней школы и определены задачи по изучению более эффективному преподаванию предмета – география.

### DEVELOPMENT OF SCHOOL GEOGRAPHY IN THE AZERBAIJAN REPUBLIC

**O.K.Alxasov, N.S.Seyfullayeva**

The changes of teaching methods of geography during the period of independence of Azerbaijan Republic are elucidated in the article. The peculiarities of contents of new educational programs and textbooks of the secondary schools are considered and tasks on studying of new effective teaching of the subject geography are defined as well.